

AZAD QƏLBİNUR

## Sən dünyadan köçəni

Bir zaman görünərdim əzəmətli dağ kimi,
Ömrə gəldi payızım, saraldım yarpaq kimi.
Əlindən oyuncağı alınan uşaq kimi
Çəkilib bir kənara, mən hamıdan küsmüşəm,
Sən dünyadan köçəli mən dünyadan köçmüşəm.

Mənə baxan gözlərdən oxuyuram hay-haray,
Yazılıb baxan gözə ömrü getdi hədər, vay!
Məni tənha buraxma, al, məni də apar tay,
Sevinc toxumu əkib, kədər barı biçmişəm,
Sən dünyadan köçəli mən dünyadan köçmüşəm.

Bir sən idin köməyim, sevinclə kədərimdə,
Səninlə getdi sevinc, qaldım kədər əlində.
Axşam-səhər gizlində ağı deyir dilim də,
Dünyanın zəhərini qədəh-qədəh içmişəm,
Sən dünyadan köçəli mən dünyadan köçmüşəm.

Azad, sənin qəlbinə fələk sancıbdır bir ox!
Etiraz qəbul etmir, əcəl gəlsə ha de yox.
Faciəli ölümün ruhumu yandırdı, oxx!..
Apar məni yanına, mən ki, səni seçmişəm,
Sən dünyadan köçəli mən dünyadan köçmüşəm.
Sən dünyadan köçəli...

## Məni dağlama

*Mərhum Vüsal Fitat oğlu Məmmədovun*
*əziz xatirəsinə, öz dilindən*

Üzü qara çörək aldı ömrümü,
Zamansız fələklər çaldı ömrümü.
Sevgim bu dünyada qaldı, ömrümü,
Yaradan əlimdən aldı, ağlama!
Ağlayıb, ay ana, məni dağlama!

Bu qədər yazıbmış qədəri yazan,
Tez qazdı adıma məzarı qazan.
Aldı Vüsalını bu haqqı - mizan,
Sel kimi kükrəyib coşub, çağlama,
Ağlayıb, ay ana, məni dağlama!

Ay ata, məğrur ol, görünmə dərdli!
Sürdüm az da olsa, ömrü şərəfli.
Sizə kömək olsun imamım Əli!
Deyirəm, sinəsi dağlı ağlama!
Ağlayıb, ay ana, məni dağlama!

Olsun bacılarım uzaq kədərdən,
Kədər qara saça salmasın ağ dən.
Dünyanın şərbəti acı zəhərdən,
Məni intizarla burda saxlama,
Ağlayıb, ay ana, məni dağlama!

Demə, qısa imiş ömür saatım,
Məni tez ağladı qohumum, yadım.
Qara mərmər üstə yazıldı adım,
Ahu-nalə ilə sən soraqlama,
Ağlayıb, ay ana, məni dağlama!

## Ata

Ata dünyamızın çörəyi, duzu,
Ata gecələrin ayı, ulduzu.
Ata körpələrin şərəfli adı,
Ata hər bir evin ocağı, odu.
Atadır övlada həyat quranlar,
Atadır düşmənə qarşı duranlar.
Atadır uşağın şöhrəti, şanı,
Atadır qoruyan Azərbaycanı.
Atadır əyilib diz üstə çökən,
Atadır torpağı ana tək öpən.

Ata atasızın gözdə yaşıdır,
Atalı uşağın məğrur başıdır.
Ata kükrəyəndə bənzəyər çaya,
Ata ilk yetişən, bil, odur haya.
Ata ümidimiz, pənahımızdır,
Ata damarlarda al qanımızdır.
Atadır dünyada sülhün baisi,
Atalar səsində var dünya səsi.
Atasın sevməyən övlad xar olar,
Atasız uşağa dünya dar olar.
Atadır dünyanın ilkin nəfəsi,
Ata məhəbbəti, eşqin guşəsi.
Atasız gündüzüm gecədən qara,
Atalı gecələr boyanar nura.
Atadır dünyanın yorğun gözləri,
Atadır tarixin ölməz izləri.
Atasız sürdüyüm ömür puç olar,
Atasız, ay Azad, dünya heç olar!

## Şirin albalı

Qaşların kamandır, gözlərin dərya,
Nurlu üzün bənzər bəbirli aya.
Heç kim bənzəməyir bizim Elaya,
Sənsən bibisinin şəkəri, balı,
Şirindən şirinsən, şirin albalı!

Baharın mehidir sənin nəfəsin,
Qəlbləri oxşayır o gözəl səsin.
Olmusan sevinci, Elay, hər kəsin!
Çiçəkdən yoluna düzülsün xalı,
Şirindən şirinsən, şirin albalı!

Nənənin, babanın şirin payısan,
Dağın şəlaləsi, şəffaf çayısan.
Günəşin bənzəri, oxşar tayısan,
Atanın, ananın sərvəti, malı,
Şirindən şirinsən, şirin albalı!

Dodağın püstədir, yanağın alma,
Üzü ağ qaymaqlı, çənəsi dolma.
Gül kimi ətir saç, heç zaman solma,
Burun fındıq kimi, gözlər gavalı,
Şirindən şirinsən, şirin albalı!

Sən Elman babanın tək göyçəyisən,
Sən Tərgül nənənin gül-çiçəyisən.
Azad babanın da sevinci sənsən,
Həmişə xürrəm ol, dəyişmə halı,
Şirindən şirinsən, şirin albalı!

## RİNATIM, RAMALIM MƏNİM

Yaşamışam bu dünyanın
Körpə gözdə, sevinc payın.
Olmusunuz günüm, ayım
Baldan şirin balam mənim,
Rinatım, Ramalım mənim!

Ömrümə sevinc ələndi,
Gözümdə yaş gilələndi.
Həyatım nura bələndi,
Oldunuz amalım mənim,
Rinatım, Ramalım mənim!

Xəzan idi baxça-bağım,
Çiçək açdı aran-dağım.
Yenidən yandı çırağım,
Artdı sərvət-varım mənim,
Rinatım, Ramalım mənim!

Əritdiniz qəlbdə buzu,
Gətirdiniz ömrə yazı.
Babanın qoşa ulduzu,
Həm ürəyim, canım mənim,
Rinatım, Ramalım mənim!

Həyat bəxş etdiniz bizə,
Çıraqsınız evimizə.
Azad baba fəda sizə,
Soy-köküm, öz qanım mənim,
Rinatım, Ramalım mənim!

